Dövlət qeydiyyatına alınmışdır
Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində
"26" dekabr 2025-ci il tarixdə

Notariat, qeydiyyat və reyestr baş
idarəsinin rəisi
Elşad Məmmədli ____________

Təsdiq edilmişdir:
16 dekabr 2025-ci il tarixdə
AHİK-in VIII Qurultayında

AHİK-in sədri
Sahib Məmmədov ____________

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının

# N İ Z A M N A M Ə S İ

(VI redaksiyada)

Bakı - 2025

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (bundan sonra – **Konfederasiya**) istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin öz maraqları naminə əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin təmsil edilməsi və müdafiəsi üçün təsis etdikləri həmkarlar ittifaqları təşkilatlarının və onların birliklərinin (bundan sonra – **Konfederasiya üzvləri**) könüllü birləşdiyi, müstəqil, ictimai, qeyri-siyasi təşkilatdır.

1.2. Konfederasiya ümumrespublika həmkarlar ittifaqı statusu daşıyır.

1.3. Konfederasiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununu bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

1.4. Konfederasiya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və onlardan asılı deyil.

1.5. Konfederasiya onun yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərinə nail olmağa xidmət edən və belə məqsədlərə uyğun gələn sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Konfederasiyanın müstəqil balansı, əmlakı və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, habelə rəmzləri (bayraq, loqotip (emblem) və s.) və digər fərqləndirici nişanları var.

1.7. Qanuna uyğun olaraq, Konfederasiyanın əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Konfederasiya məhkəmədə, habelə "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq arbitraj məhkəmələrində iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Konfederasiyanın rəsmi adı aşağıdakı kimidir:

1.8.1. tam halda – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, qısaldılmış halda – AHİK;

1.8.2. ingilis dilində tam halda – Azerbaijan Trade Unions Confederation, ingilis dilində qısaldılmış halda – AHİK.

1.9. Konfederasiya Bakı şəhəri, Gənclər Meydanı, 3 ünvanında yerləşir.

## 2. Konfederasiyanın fəaliyyət istiqamətləri

2.1. Konfederasiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. işçilərin əmək, məşğulluq və sosial-iqtisadi sahədə hüquqlarının qorunmasında və təmin edilməsində fəal iştirak etmək;

2.1.2. əmək münasibətlərinin tənzimlənməsi və əhalinin məşğulluğunun təmin olunması, habelə işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərdə iştirak etmək;

2.1.3. müasir dövrün tələblərinə cavab verən sosial-əmək siyasətinin formalaşdırılmasına dəstək vermək;

2.1.4. əmək, məşğulluq və sosial-iqtisadi sahədə qanunvericiliyin təkmilləşdirilməsinə və inkişafına dəstək göstərmək;

2.1.5. həmkarlar ittifaqları təşkilatları ilə dövlət və özəl sektor subyektləri arasında əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasını və təkmilləşdirilməsini təmin etmək, habelə bu əməkdaşlığın təşviqi üzrə tədbirlər həyata keçirmək;

2.1.6. əmək, sosial, iqtisadi və məşğulluq sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqları təşkilatları ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək;

2.1.7. Konfederasiya üzvlərinin fəaliyyətini əlaqələndirmək;

2.1.8. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Konfederasiyanın hüquqları və vəzifələri

3.1. Konfederasiya aşağıdakı hüquqlara malikdir:

3.1.1. əmək, sosial, iqtisadi və məşğulluq sahəsinə aid qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. əmək, sosial, iqtisadi və məşğulluq sahəsində normativ hüquqi aktların qəbul edilməsi, onlarda dəyişikliklər edilməsi və ləğvi istiqamətində təkliflər vermək;

3.1.3. Konfederasiya üzvlərinin mənafelərini və həmkarlar ittifaqlarının hüquqlarını pozan qanunvericilik aktları, dövlət orqanlarının (qurumlarının) qərarları, sərəncamları barədə müvafiq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarına müraciət etmək və şikayət vermək;

3.1.4. Konfederasiyaya üzv olan həmkarlar ittifaqlarının üzvlərinin əmək və həmkarlar ittifaqları haqqında qanunvericilikdən irəli gələn hüquq və mənafelərini müdafiə etmək, onların əmək qabiliyyətindən (bilik və bacarıqlarından), maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinə dəstək göstərmək;

3.1.5. Konfederasiyaya üzv olan həmkarlar ittifaqlarının üzvlərinin iş yerlərində ayrı-seçkiliyə məruz qalmaması, minimum əmək haqqından aşağı olmayan əmək haqqı almaq hüquqlarının gözlənilməsinə ictimai nəzarət etmək;

3.1.6. Konfederasiyaya üzv olan həmkarlar ittifaqlarının üzvləri ilə işəgötürənlər arasında əmək münasibətlərindən yarana biləcək mübahisələrin qarşısının alınması istiqamətində zəruri tədbirlər görmək, kollektiv əmək mübahisələrinə baxılmasında iştirak etmək;

3.1.7. əmək, sosial, iqtisadi və məşğulluq sahəsində münasibətləri tənzimləyən beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.1.8. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq və nizamnamə üzrə məqsəd və vəzifələrini həyata keçirmək məqsədilə tətillər və toplantılar keçirmək;

3.1.9. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məşğulluğa kömək göstərilməsi tədbirlərini nəzərdə tutan respublika və ərazi məşğulluq proqramlarının hazırlanmasında iştirak etmək;

3.1.10. qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində maarifləndirmə, məlumatlandırma və təbliğat işinin aparılmasında iştirak etmək;

3.1.11. “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial reklamlar sifariş etmək, habelə xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.1.12. işçilərin kütləvi surətdə sərbəstləşdirilməsi ilə əlaqədar tədbirlərin başqa vaxta keçirilməsi və ya müvəqqəti dayandırılması haqqında işəgötürənlərə və ya onların yuxarı orqanlarına təkliflər vermək;

3.1.13. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl olunmasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.1.14. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, “Həmkarlar ittifaqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məşğulluğun təmin edilməsi, işə (xidmətə) qəbul, işdənçıxarma, sosial güzəştlərin və təminatların verilməsi məsələlərində şəxslərin müdafiəsini təmin etmək;

3.1.15. tətilin maliyyələşdirilməsi üçün tətil müddətində fəaliyyət göstərən tətil fondları, həmrəylik fondları və qarşılıqlı yardım kassaları yaratmaq və onların yaradılmasına köməklik göstərmək;

3.1.16. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hüquqları çərçivəsində əməyin mühafizəsi qaydalarına və müvafiq normativ hüquqi aktlara işəgötürən tərəfindən əməl edilməsinə ictimai nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.1.17. Əmək qanunvericiliyinin, o cümlədən işəgötürənlər tərəfindən əməyin mühafizəsi qaydalarına əməl olunmasına ictimai nəzarətin həyata keçirilməsi məqsədilə öz nəzdində əmək müfəttişlikləri, habelə müvafiq ixtisaslaşmış strukturların (mərkəzlərin) yaradılmasını təmin etmək;

3.1.18. kollektiv müqavilələrdə müəyyən edilmədiyi hallarda əmək şəraiti zərərli olan işlərin siyahısı və bu işləri yerinə yetirən işçilər üçün iş vaxtının qısaldılmış müddətinin müəyyən olunması ilə bağlı Konfederasiya üzvləri tərəfindən işəgötürənlərə verilən rəylərə münasibət bildirmək;

3.1.19. kollektiv müqavilələrin və sazişlərin hazırlanması, bağlanması və onlarda dəyişiklik edilməsi üçün kollektiv danışıqların təşəbbüsçüsü kimi çıxış etmək, dövlət orqanları və digər təşkilatlarla öz fəaliyyət istiqamətlərinə uyğun olaraq əmək, sosial, iqtisadi və mədəni inkişaf məsələləri üzrə kollektiv danışıqlar aparmaq;

3.1.20. işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələbləri, habelə qüvvədə olan kollektiv müqavilələrin və sazişlərin şərtləri pozulduqda onların intizam məsuliyyətinə cəlb edilməsi barədə buna səlahiyyəti olan qurumlar qarşısında məsələ qaldırmaq;

3.1.21. müasir dövrün tələblərinə cavab verən sosial-əmək siyasətinin formalaşdırılmasına dəstək göstərilməsi, kollektiv danışıqların aparılması, işçilərin sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi məsələləri üzrə məsləhətləşmələrin həyata keçirilməsi, kollektiv müqavilə və saziş layihələrinin hazırlanması və icrasına ictimai nəzarətin həyata keçirilməsi, əmək bazarının ixtisaslı işçi qüvvəsinə olan tələbatının ödənilməsi məqsədilə dövlət orqanları (qurumları), işəgötürənlər (onların birlikləri) ilə sosial tərəfdaşlıq qurmaq;

3.1.22. sosial tərəfdaşlıq komissiyalarının yaradılmasında iştirak etmək və ya belə komissiyaların yaradılmasının təşəbbüsçüsü olmaq;

3.1.23. fəaliyyət istiqamətlərinə uyğun olaraq həmkarlar ittifaqları üzvlərinin sosial və iqtisadi müdafiəsi, həyat səviyyəsinin əsas meyarları, qiymət əmsallarının dəyişməsindən asılı olaraq kompensasiyaların məbləğlərinin müəyyən edilməsi üzrə plan və proqramların hazırlanmasında iştirak etmək;

3.1.24. qanunla müəyyən edilmiş yaşayış minimumunun gözlənilməsinə, qiymətlərin artımından asılı olaraq əmək haqqının, pensiyaların, təqaüdlərin, müavinətlərin məbləğinin vaxtında artırılmasına nəzarət edilməsində iştirak etmək;

3.1.25. əməyin mühafizəsi üzrə normativ aktların hazırlanmasında və müəyyən edilmiş qaydada razılaşdırılmasında iştirak etmək;

3.1.26. işəgötürən tərəfindən əmək və həmkarlar ittifaqları haqqında, habelə sosial, iqtisadi məsələlər barədə qanunvericiliyə əməl olunmasını və aşkara çıxarılmış pozuntuların aradan qaldırılmasını tələb etmək;

3.1.27. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ictimai dinləmələrin və ictimai müzakirələrin keçirilməsi təşəbbüsü ilə çıxış etmək, dövlət orqanları (qurumları) və digər vətəndaş cəmiyyəti institutları tərəfindən ictimai iştirakçılıq çərçivəsində təşkil olunan tədbirlərdə iştirak etmək, habelə həmin Qanundan irəli gələn digər hüquqları həyata keçirmək;

3.1.28. Konfederasiyaya üzv olan həmkarlar ittifaqlarının üzvlərinin və onların ailə üzvlərinin sağlamlığının qorunması istiqamətində tədbirlərin həyata keçirilməsində iştirak etmək;

3.1.29. sanatoriya-kurort müalicəsinin, istirahət müəssisələrinin, habelə həmkarlar ittifaqları üzvləri arasında turizmin və bədən tərbiyəsinin inkişafı üçün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərlə birgə fəaliyyət göstərmək;

3.1.30. öz əməkdaşlarının və Konfederasiyaya üzv olan təşkilatların üzvlərinin peşə hazırlığının və ixtisasının artırılmasını, habelə əlavə təhsil almalarını təmin etmək üçün müvafiq təhsil müəssisələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

3.1.31. öz əməkdaşlarının və Konfederasiyaya üzv olan təşkilatların üzvlərinin əmək, sosial, iqtisadi və məşğulluq sahəsi üzrə ixtisasartırma və peşə hazırlığı kursları və təlimləri təşkil etmək, habelə onların peşə hazırlığının və ixtisasının artırılması, qeyd edilən sahələrdə peşəkar mütəxəssislərin hazırlanması, tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək;

3.1.32. qanunvericiliyə uyğun olaraq əmək, sosial, iqtisadi və məşğulluq sahəsinə aid məsələləri, habelə Konfederasiyanın üzv təşkilatları tərəfindən baxılmasını zəruri hesab

etdiyi digər məsələləri baxılması üçün Konfederasiyanın seçkili orqanlarının müzakirəsinə təqdim etmək;

3.1.33. həmkarlar ittifaqlarının sahə prinsiplərinə uyğunluğunu və sahələr üzrə aidiyyətini müəyyən etmək;

3.1.34. Konfederasiyanın üzvü olmayan həmkarlar ittifaqları təşkilatları ilə əməkdaşlıq etmək;

3.1.35. Beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, təcrübə və informasiya mübadiləsi aparmaq, beynəlxalq həmkarlar ittifaqları təşkilatlarına üzv olmaq;

3.1.36. beynəlxalq əməkdaşlıq çərçivəsində beynəlxalq həmkarlar ittifaqları təşkilatları və başqa ölkələrin həmkarlar ittifaqları ilə birgə üzvlərinin əmək, sosial, iqtisadi və məşğulluq sahəsində hüquq və mənafelərinin müdafiəsinə yönəlmiş tədbirlər həyata keçirmək;

3.1.37. Konfederasiya üzvləri üçün həmkarlar ittifaqlarının nümunəvi nizamnaməsini hazırlamaq və təsdiq etmək;

3.1.38. Konfederasiyanın təşkilati strukturunun və funksional fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması məqsədilə zəruri institusional və təşkilati tədbirləri hazırlamaq və həyata keçirmək;

3.1.39. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, əmək, sosial, iqtisadi və məşğulluq sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.40. Konfederasiya üzvlərini məlumatlandırmaq üçün media subyektləri və nəşriyyatlar təsis etmək, mətbuat xidməti və sosioloji tədqiqat mərkəzləri yaratmaq;

3.1.41. əmək, sosial, iqtisadi və məşğulluq sahəsinə aid məsələlərlə bağlı təhlillər və ümumiləşdirmələr aparmaq, rəy və təkliflər vermək, analitik materiallar hazırlamaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.1.42. fəaliyyəti ilə əlaqədar dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına və digər hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.1.43. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.1.44. əmək, sosial, iqtisadi və məşğulluq sahəsinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.1.45. Konfederasiyanın və Konfederasiya üzvlərinin, habelə əməkdaşlıq etdiyi digər təşkilatların əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi üçün dövlət orqanlarına təkliflər vermək, onların həvəsləndirilməsi üçün digər tədbirlər görmək;

3.1.46. yaradılması zamanı qarşısında qoyduğu məqsədlərə çatmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

3.1.47. Konfederasiya üzvlərindən üzvlük haqqı almaq;

3.1.48. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, həmkarlar ittifaqlarının fəaliyyətini

tənzimləyən digər hüquqi aktlarda və bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

3.2. Konfederasiyanın aşağıdakı vəzifələri vardır:

3.2.1. Konfederasiya üzvləri arasında əlaqələndirməni təmin etmək, onların fəaliyyətini istiqamətləndirmək və səmərəliliyini artırmaq;

3.2.2. iş şəraitinin yaxşılaşdırılması, istehsalat qəzalarının qarşısının alınması, habelə bununla əlaqədar işçilərin maarifləndirilməsi istiqamətində tədbirlər görmək;

3.2.3. işəgötürənlərin qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin lazımınca icrasının təmin edilməsi istiqamətində tədbirlər görmək;

3.2.4. əmək mübahisələrinin qarşısının alınması və həlli istiqamətində tədbirlər görmək;

3.2.5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Konfederasiyaya ayrılmış vəsaitin sığortaolunanların sanatoriya-kurort müalicəsi üçün xərclənməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında” Əsasnaməyə uyğun olaraq həyata keçirmək;

3.2.6. işəgötürənlərin fəaliyyətinə qanunsuz və əsassız müdaxilə etməmək;

3.2.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq həmkarlar ittifaqlarının və onların üzvlərinin dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları və digər hüquqi və fiziki şəxslərlə münasibətlərdə hüquqlarını müdafiə etmək;

3.2.8. Konfederasiya üzvləri tərəfindən tətil və toplantıların keçirilməsinin Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydalarına riayət etmələrini təmin etmək;

3.2.9. həmkarlar ittifaqları üzvlərini müəssisədaxili əmək və intizam qaydalarına, habelə əməyin mühafizəsi və təhlükəsizliyi qaydalarına riayət edilməsinə təşviq etmək;

3.2.10. Konfederasiya ilə qarşılıqlı münasibətlərdə bütün Konfederasiya üzvlərinə bərabər imkanların yaradılmasını təmin etmək;

3.2.11. işəgötürənlər və onların birliklərinin fəaliyyətində inzibati xəta və ya cinayət əlamətləri aşkar etdikdə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə səlahiyyətli qurumlara məlumat vermək;

3.2.12. Konfederasiyanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.2.13. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə aidiyyəti üzrə dəstək göstərmək;

3.2.14. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan

Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.2.15. Konfederasiyanın əmlakından, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan və qanunla qadağan edilməyən digər maliyyə mənbələrindən əldə edilən vəsaitdən təyinatı üzrə səmərəli istifadə etmək;

3.2.16. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.2.17. Konfederasiyanın informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.2.18. Baş Kollektiv Sazişdən irəli gələn öhdəliklərini yerinə yetirmək;

3.2.19. "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, həmkarlar ittifaqlarının fəaliyyətini tənzimləyən digər hüquqi aktlarda və bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Konfederasiyaya üzvlük, Konfederasiya üzvlərinin hüquqları və vəzifələri

4.1. Sahə (peşə) həmkarlar ittifaqları və Naxçıvan Muxtar Respublikasının sahələrarası birlikləri öz nizamnamələri ilə müəyyən olunmuş vəzifələri yerinə yetirmək məqsədilə könüllülük prinsipi əsasında Konfederasiyanın üzvü ola bilərlər.

4.2. Konfederasiya üzvləri öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununu, bu sahədə münasibətləri tənzimləyən digər normativ-hüquqi aktları münasibətləri tənzimləyən hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

4.3. Konfederasiyaya üzvlük barədə qərar üzvlük üçün müraciət edən həmkarlar ittifaqı təşkilatının müraciəti əsasında Məclis tərəfindən qəbul edilir.

4.4. Konfederasiyaya üzvlük üçün müraciət edən həmkarlar ittifaqları təşkilatlarının və onların birliklərinin müraciətinə aşağıdakı sənədlər (məlumatlar) əlavə olunur:

4.4.1. idarəetmə orqanının Konfederasiyada üzvlük niyyəti barədə qərarı;

4.4.2. təsis sənədləri (hüquqi şəxs olduqda nizamnaməsinin, dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) surəti);

4.4.3. üzvlərinin sayı barədə məlumat;

4.4.4. Konfederasiyanın Nizamnaməsinə riayət olunması, o cümlədən Konfederasiya tərəfindən bu Nizamnamədə müəyyən olunan qaydada üzvlük haqqının ödənilməsi barədə yazılı öhdəlik.

4.5. Bu Nizamnamənin 4.3-cü bəndindəki müraciətin və 4.4-cü bəndindəki sənədlərin (məlumatların) düzgünlüyü sənədlərin təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində Konfederasiya tərəfindən yoxlanılır və Konfederasiyaya yeni üzvün (üzvlərin) qəbul edilməsi barədə Məclisə təqdimat verilir. Konfederasiya sənədlərdə çatışmazlıqlar aşkar etdikdə,

sənədləri üzvlük üçün müraciət edən həmkarlar ittifaqı təşkilatına qaytarmaqla, bu çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq 5 (beş) iş günü müddət təyin edir. Həmin müddət ərzində çatışmazlıqlar aradan qaldırılmadıqda müraciət verilməmiş hesab edilir və baxılmamış saxlanılır. Təqdim edilmiş sənədlər yoxlanıldıqdan və ya həmin sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra Məclis İcraiyyə Komitəsi tərəfindən verilmiş təqdimata 1 (bir) aydan gec olmayaraq baxır və iclasda iştirak edənlərin ən azı üçdə iki səs çoxluğu ilə müvafiq həmkarlar ittifaqı təşkilatının üzvlüyə qəbul edilməsi və ya üzvlüyə qəbul edilməsindən imtina olunması haqqında qərar qəbul edir. Həmkarlar ittifaqı təşkilatının Konfederasiyaya üzvlüyündən imtina edildikdə, imtinanın səbəbləri yazılı şəkildə əsaslandırılmalı və bu barədə üzvlük üçün müraciət edən həmkarlar ittifaqı təşkilatına qərar qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində məlumat verilməlidir. Məclisin həmkarlar ittifaqı təşkilatının üzvlüyə qəbul edilməsindən imtina olunması haqqında qərarı həmin həmkarlar ittifaqının Konfederasiyaya üzvlük üçün yenidən müraciət etmək hüququnu məhdudlaşdırmır.

4.6. Konfederasiya üzvlərinin üzvlüyünə onların öz arzusu ilə və ya bu Nizamnamənin 4.10-cu bəndində nəzərdə tutulmuş hallarda Konfederasiya tərəfindən birtərəfli qaydada xitam verilir.

4.7. Konfederasiya üzvləri Konfederasiya ləğv edildikdə və ya yenidən təşkil edildikdə Konfederasiyaya üzvlüyünü itirir.

4.8. Konfederasiya üzvü öz səlahiyyətli orqanının müvafiq qərarına əsasən 3 ay əvvəlcədən Məclisi xəbərdar etməklə öz arzusu ilə Konfederasiya üzvlüyündən çıxa bilər. Bu halda üzvlüyə xitam verilməsi barədə yekun qərar Konfederasiyanın Məclisi tərəfindən 3 aylıq xəbərdarlıq müddəti bitdikdən sonra ən geci 5 (beş) iş günü ərzində qəbul edilir.

4.9. Bu Nizamnamənin 4.8-ci bəndində müəyyən edilən 3 aylıq müddət başa çatanadək Konfederasiya üzvləri üzv olaraq fəaliyyətlərini davam etdirə bilərlər.

4.10. Aşağıdakı hallarda Konfederasiya üzvlərinin üzvlüyünə Konfederasiya tərəfindən birtərəfli qaydada xitam verilir:

4.10.1. Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, həmçinin sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, bu sahədə münasibətləri tənzimləyən digər hüquqi aktlara və bu Nizamnaməyə zidd fəaliyyət göstərdikdə;

4.10.2. Konfederasiyanın qərarlarını icra etmədikdə;

4.10.3. Konfederasiyanın və Konfederasiyanın digər üzvlərinin fəaliyyətinə və qanuni maraqlarına xələl gətirən hərəkətlərə yol verdikdə;

4.10.4. Bu Nizamnamənin 4.11-ci bəndinin üçüncü cümləsində nəzərdə tutulan halda.

4.11. Konfederasiya üzvü üzrlü səbəblər olmadan üzvlük haqqını nəzərdə tutulan ödəniş müddətləri üzrə iki dəfədən artıq ödəmədikdə İcraiyyə Komitəsi müvafiq Konfederasiya üzvünün nümayəndələrinin Məclisdə və İcraiyyə Komitəsində səsvermə hüququnun 6 (altı) ayadək müddətə məhdudlaşdırılması məsələsinə baxılması üçün Məclisə müraciət edir. Bu barədə qərar Məclis tərəfindən İcraiyyə Komitəsinin müraciəti daxil olduğu

gündən etibarən 5 (beş) iş günü ərzində Məclis üzvlərinin ən azı üçdə iki səs çoxluğu ilə qəbul edilir. Konfederasiya üzvünün nümayəndələrinin Məclisdə və İcraiyyə Komitəsində səsvermə hüququnun məhdudlaşdırıldığı müddət ərzində üzvlük haqqından irəli gələn borclar ödənilmədikdə İcraiyyə Komitəsinin təqdimatı ilə Məclis tərəfindən müvafiq Konfederasiya üzvünün üzvlüyünə xitam verilir.

4.12. Konfederasiya üzvünün nümayəndələrinin Məclisdə və İcraiyyə Komitəsində səsvermə hüququnun məhdudlaşdırıldığı müddət ərzində Konfederasiya üzvü tərəfindən üzvlük haqqından irəli gələn borclar tam ödənilərsə İcraiyyə Komitəsinin müraciəti ilə Məclis tərəfindən onun nümayəndəsinin səsvermə hüququ həmin tarixdən bərpa edilir.

4.13. Bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Konfederasiyada üzvlüyünə xitam verilmiş və ya öz təşəbbüsü ilə üzvlükdən çıxmış həmkarlar ittifaqı təşkilatları Konfederasiyaya ödədikləri üzvlük haqqını geri tələb edə bilməzlər.

4.14. Bu Nizamnamənin 4.10-cu bəndində göstərilən əsaslarla Konfederasiya üzvlərinin üzvlüyünə xitam verilməsi barədə qərar İcraiyyə Komitəsinin təqdimatı əsasında Məclis tərəfindən ən azı üçdə iki səs çoxluğu ilə qəbul edilir.

4.15. Konfederasiya üzvlərinin aşağıdakı hüquqları vardır:

4.15.1. Məclisə və İcraiyyə Komitəsinə öz nümayəndələrini seçmək və onları geri çağırmaq;

4.15.2. nümayəndələri vasitəsilə Qurultayda, habelə Konfederasiyanın İcraiyyə Komitəsinin və Məclisin işində iştirak etmək;

4.15.3. əmək, sosial, iqtisadi və məşğulluq məsələləri barəsində qanunvericilik aktlarının hazırlanmasında iştirak etmək, həmçinin əmək, sosial, iqtisadi, məşğulluq sahəsində normativ hüquqi aktların qəbul edilməsi, onlarda dəyişiklik edilməsi, ləğvi və şərh edilməsi istiqamətində təkliflər vermək;

4.15.4. tətillər və toplantıların keçirilməsində, digər Konfederasiya üzvləri ilə mübahisəli məsələlərin baxılması və həllində Konfederasiyanın dəstəyi üçün müraciət etmək;

4.15.5. kollektiv müqavilələrin və sazişlərin bağlanılması barədə təkliflər vermək, habelə həmin sazişlərin hazırlanmasında iştirak etmək;

4.15.6. fəaliyyətinə dair məsələlərlə bağlı, o cümlədən öz hüquqlarının və qanuni mənafelərinin dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları və digər hüquqi və fiziki şəxslərlə münasibətlərdə müdafiə və təmsil edilməsi barədə Konfederasiyaya müraciət etmək və Konfederasiya ilə məsləhətləşmələr aparmaq;

4.15.7. işəgötürənlərlə əmək münasibətlərindən yarana biləcək mübahisələrin qarşısının alınması məqsədi ilə qabaqlayıcı tədbirlərin görülməsi üçün Konfederasiyaya müraciət etmək;

4.15.8. media subyektlərinin, nəşriyyatların, habelə mətbuat xidmətinin və sosioloji tədqiqat mərkəzlərinin yaradılmasında Konfederasiyaya təşkilati və digər dəstək göstərmək;

4.15.9. Konfederasiyanın digər üzvləri ilə əməkdaşlığı genişləndirmək və əlaqələri inkişaf etdirmək;

4.15.10. Konfederasiyanın uzunmüddətli strategiyasının və fəaliyyət planlarının hazırlanmasında iştirak etmək;

4.15.11. beynəlxalq və xarici dövlətlərin həmkarlar ittifaqları təşkilatları ilə, onların aidiyyəti qurumları ilə əməkdaşlıq edilməsi və qarşılıqlı əlaqələrin qurulması üçün Konfederasiyanın dəstəyindən istifadə etmək;

4.15.12. Konfederasiyanın rəmzlərindən istifadə etmək;

4.15.13. digər həmkarlar ittifaqları təşkilatları, o cümlədən Konfederasiya üzvləri, habelə beynəlxalq həmkarlar ittifaqları təşkilatları ilə birgə layihələr həyata keçirmək;

4.15.14. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi üçün dövlət orqanlarına təkliflər vermək, habelə onların həvəsləndirilməsi üçün Konfederasiyaya təqdimat vermək;

4.15.15. əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsinə köməklik göstərilməsi üçün Konfederasiyaya müraciət etmək;

4.15.16. fəaliyyətinə aid məsələlərlə bağlı konfranslar, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

4.15.17. Konfederasiyanın orqanlarının iclaslarının gündəliyinə daxil ediləcək məsələlər barədə təkliflər vermək;

4.15.18. Konfederasiyanın xüsusi fondlarının yaradılmasında iştirak etmək;

4.15.19. bu Nizamnamənin 4.8-ci bəndində müəyyən edilmiş qaydada sərbəst və maneəsiz şəkildə Konfederasiya üzvlüyündən çıxmaq;

4.15.20. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, həmkarlar ittifaqlarının fəaliyyətini tənzimləyən digər hüquqi aktlarda, bu Nizamnamədə və öz nizamnamələrində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

4.16. Konfederasiya üzvlərinin aşağıdakı vəzifələri vardır:

4.16.1. fəaliyyətini bu Nizamnaməyə uyğun qaydada həyata keçirmək;

4.16.2. Konfederasiyanın bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərinə çatmasında fəal iştirak etmək;

4.16.3. Konfederasiyanın digər üzvlərinin hüquqlarının və qanuni maraqlarının qorunmasına dəstək göstərmək və bu istiqamətdə həmrəylik nümayiş etdirmək;

4.16.4. Konfederasiya tərəfindən müəyyən edilmiş məbləğdə üzvlük haqqını ödəmək;

4.16.5. bu Nizamnaməyə uyğun olaraq Konfederasiya orqanları tərəfindən qəbul edilən qərarları icra etmək;

4.16.6. öz nizamnamələrində və idarəetmə orqanlarının tərkibində baş verən dəyişikliklər, ümumi əhəmiyyətli qərarları, o cümlədən digər üzvlərin də maraqlarına təsir edə biləcək qərarları, həmçinin görülmüş digər tədbirlər barədə Konfederasiyanı məlumatlandırmaq;

4.16.7. Konfederasiyanın birliyinə xələl gətirən, habelə Konfederasiyanın və Konfederasiyanın digər üzvlərinin fəaliyyətini pozan və onların qanuni maraqlarına ziyan vuran hərəkətlərdən çəkinmək;

4.16.8. öz fəaliyyətləri ilə bağlı illik hesabatları, habelə üzvlərinin sayı barədə statistik məlumatları Konfederasiyanın tələbi ilə 15 (on beş) iş günündən gec olmayaraq təqdim etmək;

4.16.9. üzv təşkilatlar tərəfindən ödənilən üzvlük haqları və digər ödənişlərlə bağlı illik maliyyə hesabatlarını müəyyən olunmuş müddətdə təqdim etmək;

4.16.10. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlığa başlanıldıqda, habelə beynəlxalq həmkarlar ittifaqları təşkilatlarına üzv olduqda və ya üzvlükdən çıxdıqda bu barədə Konfederasiyanı yazılı şəkildə məlumatlandırmaq;

4.16.11. Konfederasiya tərəfindən irəli sürülən məsələləri öz kollegial orqanlarının müzakirəsinə çıxarmaq və qəbul edilmiş qərarlar barədə Konfederasiyaya məlumat vermək;

4.16.12. Baş kollektiv sazişin bağlanması, ona dəyişiklik edilməsi ilə bağlı müvafiq tərəflərlə danışıqların aparılmasına, habelə qüvvədə olan Baş kollektiv sazişdə nəzərdə tutulan Konfederasiyanın öhdəliklərinin yerinə yetirilməsinə dəstək göstərmək;

4.16.13. Konfederasiya tərəfindən təsis olunmuş media subyektlərinin fəaliyyətinə dəstək vermək;

4.16.14. Konfederasiya tərəfindən təşkil edilən kollektiv tədbirlərdə iştirak etmək, həmçinin belə tədbirlərin keçirilməsinə təşkilati dəstək göstərmək;

4.16.15. planlaşdırılan tətillər və toplantılar barədə Konfederasiyanı ən azı 15 (on beş) iş günü öncədən məlumatlandırmaq;

4.16.16. Konfederasiyanın fəaliyyəti ilə bağlı konfidensial məlumatları açıqlamamaq;

4.16.17. işəgötürənlər, dövlət orqanları (qurumları) və həmkarlar ittifaqları təşkilatları ilə kollektiv müqavilələrin və sazişlərin bağlanması və icrasına nəzarət tədbirlərini həyata keçirmək;

4.16.18. Konfederasiyanın fəaliyyətinin effektivliyinin artırılmasına və gücləndirilməsinə, o cümlədən onun beynəlxalq həmkarlar ittifaqları hərəkatında rolunun artırılmasına dəstək göstərmək;

4.16.19. dövlət orqanları (qurumları) ilə, işəgötürənlərlə sosial tərəfdaşlığın inkişaf etdirilməsinə dəstək göstərmək;

4.16.20. Konfederasiyanın məqsədlərinə nail olunmasını çətinləşdirən və ya mümkünsüz edən hərəkətlərə (hərəkətsizliklərə) yol verməmək;

4.16.21. "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, həmkarlar ittifaqlarının fəaliyyətini tənzimləyən digər hüquqi aktlarda, bu Nizamnamədə və öz nizamnamələrindən nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

4.17. Bu Nizamnamə və üzv təşkilatlarının nizamnaməsinə uyğun qəbul edilmiş, Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq Əmək Təşkilatının Konvensiyalarına zidd olmayan Konfederasiya qərarları bütün üzv təşkilatlar üçün

məcburidir. Konfederasiya üzvlərinin rəhbərləri bu qərarların həyata keçirilməsinə şəxsən cavabdehdirlər.

4.18. Konfederasiya üzvləri bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmədikdə və bu Nizamnaməyə zidd fəaliyyət göstərdikdə, Konfederasiyanın İcraiyyə Komitəsi bununla bağlı həmin Konfederasiya üzvünə vəzifələrinin icrası məqsədilə təqdimat göndərir. Təqdimata 30 (otuz) gün müddətində baxılmalı və nəticələri barədə İcraiyyə Komitəsinə yazılı məlumat verilməlidir.

4.19. Bu Nizamnamənin 4.18-ci bəndində müəyyən edilmiş müddət ərzində təqdimata baxılmadıqda və nəticələri barədə Konfederasiyaya yazılı məlumat verilmədikdə, Konfederasiya tərəfindən həmin Konfederasiya üzvünün üzvlüyünə bu Nizamnamənin 4.10-cu yarımbəndində nəzərdə tutulan əsasla xitam verilməsi məsələsinə baxıla bilər.

## 5. Konfederasiyanın idarə olunması

5.1. Konfederasiyanın idarəetmə orqanları aşağıdakılardır:

5.1.1. Qurultay – ali orqan;

5.1.2. Məclis – qurultaylararası dövrdə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən orqan;

5.1.3. İcraiyyə Komitəsi – kollegial icra orqanı;

5.1.4. Konfederasiya sədri – təşkilati-sərəncamverici funksiyaları həyata keçirən orqan;

5.1.5. Təftiş Komissiyası – nəzarət-təftiş orqanı.

5.2. Qurultay.

5.2.1. Qurultay Konfederasiya üzvlərinin bərabər saylı nümayəndələrindən təşkil olunan, Konfederasiyaya ümumi rəhbərliyi və nəzarəti həyata keçirən ali orqandır.

5.2.2. Qurultayda Konfederasiya üzvlərinin təmsilçilik norması – hər bir üzv təşkilatı təmsil edəcək nümayəndələrin sayı – Məclis tərəfindən müəyyən edilir və bütün üzv təşkilatlar üçün bərabər sayda tətbiq olunur. Hər bir Konfederasiya üzvü özünün müəyyən etdiyi qaydada Konfederasiyada təmsil olunacaq nümayəndəsini sərbəst şəkildə seçir.

5.2.3. Qurultayın iclasları növbəti və növbədənkənar ola bilər. Qurultayın növbəti iclasları Məclis tərəfindən 7 ildə bir dəfədən az olmayaraq çağırılır.

5.2.4. Qurultayın növbədənkənar iclasları onun müstəsna səlahiyyətlərinə aid olan məsələlərin həlli məqsədilə sədrin, Məclisin və ya Konfederasiya üzvlərinin ən azı üçdə iki hissəsinin təşəbbüsü ilə çağırılır.

5.2.5. Qurultayın iclasları Konfederasiya üzvlərindən bərabər sayda seçilmiş nümayəndələrin ən azı üçdə iki hissəsi iştirak etdiyi halda səlahiyyətlidir. Qurultayın iclasında qərarlar hər nümayəndənin bir səsi olmaqla sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı nümayəndələrin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

5.2.6. Qurultayın iclaslarına Konfederasiya sədri və ya onu əvəz edən şəxs rəhbərlik edir.

5.2.7. Konfederasiya üzvlərinə, habelə Qurultayın iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 30 (otuz) gün qalmış zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

5.2.8. Qurultayın iclasının gündəliyinə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədlər iclasdan qabaq gündəliyə əlavə edilməmiş məsələlər barədə, iclasda iştirak edən səsvermə hüququna malik nümayəndələrin üçdə ikisinin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

5.2.9. Qurultayın iclasının nəticələri protokolla rəsmiləşdirilir. Protokol iclas katibi tərəfindən tərtib edilir.

5.2.10. Protokolda iclasın yeri, vaxtı, iştirakçılar barədə məlumatlar, iclasın gündəliyi, çıxışların xülasəsi, səsvermənin nəticələri və qəbul edilən yekun qərarlar əks olunur. Protokol Qurultayın iclasına sədrlik edən və katib tərəfindən imzalanır.

5.2.11. Müstəsna hallarda (fövqəladə və hərbi vəziyyət, təbii və ya texnogen qəzalar, epidemiya və s.) Qurultayın iclasları videokonfrans əlaqə sistemlərindən istifadə edilməklə keçirilə bilər. İclaslar videkonfrans əlaqə sistemindən istifadə edilməklə keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində ötürülməsini təmin etməli, habelə iclasın aşkar və şəffaf keçirilməsinə mane olmamalıdır. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən iclasların videoyazısı aparılmalı və videoyazıya uyğun olaraq iclasın nəticələri rəsmiləşdirilməlidir.

5.3. Qurultayın səlahiyyətləri aşağıdakılardır:

5.3.1. Konkret dövr üçün Konfederasiyanın məqsəd və planlarını, inkişaf istiqamətlərini müəyyən etmək;

5.3.2. Konfederasiyanın nizamnaməsini və ona dəyişiklikləri təsdiq etmək;

5.3.3. Təftiş Komissiyasını yaratmaq, Komissiyanın Əsasnaməsini və ona dəyişiklikləri təsdiq etmək;

5.3.4. Konfederasiya sədrini və Təftiş Komissiyasının üzvlərini sadə səs çoxluğu ilə seçmək;

5.3.5. Konfederasiyanın fəaliyyətinin dayandırılması, yenidən təşkili və ləğvi barədə qərar qəbul etmək;

5.3.6. Məclis üzvlərinin səlahiyyətini təsdiq etmək;

5.3.7. Konfederasiyanın orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

5.3.8. Konfederasiya ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakının bu Nizamnamə ilə müəyyən edilən məqsədlərə yönəldilməsi barədə qərar qəbul etmək;

5.3.9. Konfederasiyanın və onun Təftiş Komissiyasının fəaliyyətinə dair hesabatı dinləmək;

5.3.10. əmək, sosial, iqtisadi və məşğulluq sahəsində ümumölkə əhəmiyyətli məsələlərə dair qərarlar, sərəncamlar, bəyanatlar qəbul etmək və müraciətlər ünvanlamaq;

5.4. Bu Nizamnamənin 5.3.2-5.3.9-cu yarımbəndlərində nəzərdə tutulan səlahiyyətlər Qurultayın müstəsna səlahiyyətləridir.

5.5. Məclis.

5.5.1. Məclis qurultaylararası dövrdə Konfederasiyanın fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən orqandır.

5.5.2. Məclisin tərkibi Konfederasiya sədrindən, onun müavinindən (müavinlərindən) və Konfederasiya üzvlərinin nümayəndələrdən ibarət tərkibdə formalaşır. Məclisin tərkibinin formalaşdırılması məqsədilə Konfederasiya üzvləri öz səlahiyyətli orqanlarının qərarı əsasında Məclisin tərkibinə daxil edilməsi üçün 5 nümayəndəsini seçir.

5.5.3. Məclisin səlahiyyət müddəti 7 ildir.

5.5.4. Üzv təşkilatın üzvlüyünə xitam verildikdə və ya öz təşəbbüsü ilə üzvlükdən çıxdıqda onun nümayəndələrinin Məclisin tərkibindəki fəaliyyətinə xitam verilir.

5.5.5. Məclisin iclasları növbəti və növbədənkənar olur. Məclisin növbəti iclasları ildə bir dəfədən az olmayaraq keçirilir. İcraiyyə Komitəsinin qərarı və ya Məclis üzvlərinin ən azı üçdə birinin tələbi ilə Məclisin növbədənkənar iclasları çağırıla bilər.

5.5.6. Məclisin iclasları onun üzvlərinin üçdə ikisi iştirak etdiyi hallarda səlahiyyətlidir.

5.5.7. Məclisin iclaslarına Konfederasiyanın sədri və ya onu əvəz edən şəxs rəhbərlik edir.

5.5.8. Məclisin üzvlərinə, habelə Məclisin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 15 (on beş) gün qalmış zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

5.5.9. Məclisin iclasında qərarlar hər üzvün bir səsi olmaqla sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı nümayəndələrin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

5.5.10. Məclisin iclaslarına münasibətdə bu Nizamnamənin 5.2.9-5.2.11-ci yarımbəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir.

5.6. Məclisin vəzifələri aşağıdakılardır:

5.6.1. İcraiyyə Komitəsinin fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

5.6.2. Qurultaylararası dövrdə Konfederasiya sədrinin öz arzusu ilə vəzifədən azad edilməsi barədə qərar qəbul etmək;

5.6.3. Məclis üzvləri arasından Konfederasiya sədrinin müavinlərini seçmək və onları vəzifədən azad etmək;

5.6.4. İcraiyyə Komitəsinin təqdimatı əsasında Konfederasiyaya yeni üzvlərin qəbul edilməsi və Konfederasiya üzvlərinin üzvlüyünə xitam verilməsi məsələlərinə baxmaq;

5.6.5. Üzv təşkilatların nümayəndələrini təsdiq etmək, qurultaylararası dövrdə Məclis və Təftiş Komissiyası üzvlərinin dəyişdirilməsi barədə qərarları təsdiq etmək;

5.6.6. Konfederasiyanın Nizamnaməsinə və "Təftiş Komissiyasının Əsasnaməsi"nə dəyişikliklərin edilməsi ilə bağlı Qurultaya təkliflər vermək;

5.6.7. Dövlət səviyyəsində və beynəlxalq məsələlərdə Konfederasiya üzvlərinin ümumi mövqeyini, taktikasını və fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək;

5.6.8. Həmkarlar ittifaqı təşkilatı üzvlərinin hüquq və mənafeyinə toxunan qərarların ləğv edilməsi və ya dəyişdirilməsi haqqında dövlət orqanları (qurumları), digər idarə, müəssisə və təşkilatlar qarşısında tələblər irəli sürmək;

5.6.9. Məclis üzvlərinin, İcraiyyə Komitəsinin və Konfederasiya sədrinin müraciətlərinə baxmaq və nəticələri barədə qərar qəbul etmək;

5.6.10. Konfederasiyanın fəaliyyətinə dair İcraiyyə Komitəsinin illik hesabatını dinləmək;

5.6.11. Bu Nizamnamənin 5.6.2-ci bəndində nəzərdə tutulan halda qurultayın növbəti iclası keçirilənədək Konfederasiya sədrinin vəzifələrinin icrasının onun müavininə (müavinlərindən birinə), Konfederasiya sədrinin müavini olmadıqda isə Konfederasiyanın idarəetmə orqanlarında təmsil olunan şəxsə həvalə edilməsi barədə qərar qəbul etmək;

5.6.12. Qurultayın iclaslarının çağırılması haqqında qərar qəbul etmək, gündəlikdəki məsələləri və iclasın keçiriləcəyi yeri müəyyən etmək;

5.6.13. Konfederasiyanın illik maliyyə hesabatını təsdiq etmək və üzvlük haqlarından ayırmaların faizini təsdiq etmək;

5.6.14. Konfederasiyanın beynəlxalq sahədə fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək, habelə Konfederasiyanın beynəlxalq həmkarlar ittifaqları təşkilatlarına üzv olması və ya üzvlükdən çıxması barədə qərar qəbul etmək;

5.6.15. bu Nizamnamənin müddəalarını şərh etmək və izahlar vermək;

5.6.16. qanunvericiliyə uyğun olaraq Konfederasiya üzvlərinin tətillər və toplantılar keçirməsi və ya həmin tədbirləri keçirməsinə dəstək göstərilməsi barədə qərar qəbul etmək;

5.6.17. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

5.7. İcraiyyə Komitəsi.

5.7.1. İcraiyyə Komitəsi Konfederasiyanın cari fəaliyyətinin təşkil edilməsi məqsədi ilə Məclis tərəfindən formalaşdılır.

5.7.2. İcraiyyə Komitəsi Məclis qarşısında hesabatlıdır.

5.7.3. İcraiyyə Komitəsinin tərkibi Konfederasiyanın sədri, onun müavinləri və hər bir üzv təşkilatın bir nəfər səlahiyyətli nümayəndəsindən ibarətdir. Tərkib Məclis tərəfindən təsdiq edilir.

5.7.4. İcraiyyə Komitəsinin səlahiyyət müddəti 7 ildir.

5.7.5. İcraiyyə Komitəsinin iclasları zəruri hallarda, lakin rübdə bir dəfədən az olmayaraq keçirilir.

5.7.6. İcraiyyə Komitəsinin iclasları onun üzvlərinin ən azı yarısı iştirak etdikdə səlahiyyətlidir. İcraiyyə Komitəsinin iclasında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı nümayəndələrin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

5.7.7. İcraiyyə Komitəsinin iclaslarına münasibətdə bu Nizamnamənin 5.2.9-5.2.11-ci bəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir.

5.8. İcraiyyə Komitəsinin vəzifələri aşağıdakılardır:

5.8.1. Qurultayın və Məclisin qərarlarından irəli gələn məsələləri həll etmək;

5.8.2. İcraiyyə Komitəsinin üzvlərinin müraciətlərinə baxmaq və nəticələri barədə qərarlar qəbul etmək;

5.8.3. Həmkarlar ittifaqları üzvlərinin əmək, sosial-iqtisadi hüquqlarına və qanuni mənafelərinə toxunan məsələlərlə bağlı müvafiq dövlət orqanlarına müraciətlər etmək və təqdimatlar vermək;

5.8.4. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Məclisə təkliflər vermək və aidiyyəti sənədləri təqdim etmək;

5.8.5. Üzv təşkilatlar tərəfindən illik maliyyə hesabatlarınının verilməsi müddətlərini müəyyən etmək;

5.8.6. Konfederasiyaya yeni üzvlərin qəbul edilməsi və Konfederasiya üzvlərinin üzvlüyünə xitam verilməsi barədə Məclisə təkliflər vermək;

5.8.7. Konfederasiyanın Nizamnaməsinə və “Təftiş Komissiyasının Əsasnaməsi”nə dəyişiklik edilməsi barədə Qurultaya təkliflər verilməsi üçün Məclisə müraciət etmək;

5.8.8. Konfederasiya üzvləri arasında yaranan mübahisələrin həll edilməsi istiqamətində işlər görmək;

5.8.9. Konfederasiya üzvləri üçün həmkarlar ittifaqlarının nümunəvi nizamnaməsini, habelə ona edilən dəyişiklikləri təsdiq etmək;

5.8.10. Konfederasiyanın əmlakına sahibliyi həyata keçirilməsi, ondan istifadə edilməsi və sərəncam verilməsi qaydalarını müəyyən etmək və həmin qaydalara riayət olunmasına nəzarət etmək, Konfederasiyanın əmlakı üzərində sərəncam vermək;

5.8.11. Konfederasiyanın maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

5.8.12. Konfederasiyanın strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin) məbləğini təsdiq etmək;

5.8.13. Həmkarlar ittifaqı büdcəsi, dövlət sosial sığorta büdcəsi sahəsində həmkarlar ittifaqı təşkilatlarının maliyyə işləri üzrə fəaliyyətlərinə nəzarət etmək, Konfederasiya üzvlərinin həmkarlar ittifaqı büdcəsini təsdiq etmək;

5.8.14. Konfederasiya üzvlərinin gəlir və xərclərinin smetasını hər il müəyyən edərək təsdiq etmək;

5.8.15. Konfederasiyanın törəmə müəssisələrinin, struktur bölmələrinin (idarə, filial, nümayəndəlik, komitə və s.) yaradılması barədə qərar qəbul etmək;

5.8.16. Konfederasiyanın törəmə müəssisələrinin, struktur bölmələrinin (idarə, filial, nümayəndəlik, komitə və s.) rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

5.8.17. Üzv təşkilatlarin fəaliyyəti ilə bağlı normativ sənədlər və təlimatlar hazırlamaq;

5.8.18. Konfederasiyanın fəaliyyətinə dair daxili qaydaları təsdiq etmək;

5.8.19. Konfederasiyanın fəaliyyətinə aid olan məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;

5.8.20. Konfederasiyanın mətbuat xidmətini təsis etmək və baş redaktorunu təyin etmək;

5.8.21. Konfederasiyanın fəxri fərmanlarını, habelə fərqləndirici nişanlarını təsis etmək;

5.8.22. Konfederasiyanın həmrəylik, mədəni-maarifləndirici işlərin görülməsi, kadr hazırlığının təşkili, təhsil və digər əhəmiyyətli məsələlərlə bağlı xüsusi fondlarını yaratmaq;

5.8.23. Konfederasiyanın nəzdində əmək müfəttişlikləri və müvafiq sahədə ixtisaslaşmış mərkəzlər yaratmaq, onların tərkibini formalaşdırmaq və əsasnamə, yaxud nizamnamələrini təsdiq etmək;

5.8.24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında" Əsasnamə ilə müəyyən olunmuş qaydada sığortaolunanlar üçün ayrılan vəsaitin təyinatı üzrə xərclənməsini təmin etmək;

5.8.25. Konfederasiya üzvlərinin və onların səlahiyyətli orqanlarının bu Nizamnaməyə, Məclisin, Qurultayın və İcraiyyə Komitəsinin qərarlarına zidd olan qərarlarının ləğv edilməsi və (və ya) hərəkətlərinin dayandırılmasını Konfederasiya üzvlərindən tələb etmək;

5.8.26. Konfederasiyanın təsis etdiyi qurumların, tabeliyində olan idarə, filial və nümayəndəliklərin, mərkəzlərin, o cümlədən idman, sanatoriya-kurort, təhsil, mədəniyyət müəssisələrinin və digər təşkilatların işinə nəzarət etmək;

5.8.27. Həmkarlar ittifaqlarının üzvlərinin, habelə onların ailə üzvlərinin sanatoriya-kurort müəssisələrində müalicəsi və istirahəti üçün yollayışların verilməsi qaydasını təsdiq etmək;

5.8.28. Məclisin iclaslarının çağırılması barədə qərar qəbul etmək, gündəlikdəki məsələlər və iclasın keçirilməsi yeri barədə təkliflər vermək;

5.8.29. Qurultay və Məclis tərəfindən ona həvalə edilmiş digər vəzifələri yerinə yetirmək.

5.9. Konfederasiya sədri.

5.9.1. Konfederasiya sədri bu Nizamnamənin 5.2.5-ci yarımbəndinə uyğun olaraq Qurultayın iclasında iştirak edən Konfederasiya üzvlərinin nümayəndələri arasından həmin yarımbənddə müəyyən edilmiş qaydada 7 il müddətinə seçilir. Konfederasiya sədri təkrar seçilə bilər.

5.9.2. Həmkarlar ittifaqının üzvü olan tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikasının vətəndaşı Konfederasiyanın sədri ola bilər.

5.9.3. Konfederasiya sədri məzuniyyətdə və ya ezamiyyətdə olduqda, yaxud səlahiyyətlərini müvəqqəti icra edə bilmədikdə, onun səlahiyyətlərini Konfederasiya sədrinin göstərişi ilə onun müavinlərindən biri icra edir.

5.9.4. Konfederasiya sədri və onun müavini (müavinləri) Məclisin və İcraiyyə Komitəsinin üzvüdür.

5.9.5. Qurultaylararası dövrdə Konfederasiya sədrinin öz arzusu ilə vəzifədən azad edilməsi Məclis üzvlərinin üçdə iki səs çoxluğu ilə Məclisin qərarı əsasında həyata keçirilir.

5.10. Konfederasiya sədrinin aşağıdakı vəzifələri vardır:

5.10.1. Konfederasiyanın fəaliyyətini təşkil etmək;

5.10.2. cari və operativ məsələlər barədə İcraiyyə Komitəsini məlumatlandırmaq;

5.10.3. Konfederasiyanın cari fəaliyyətinə rəhbərlik etmək;

5.10.4. bu Nizamnamənin tələblərinin yerinə yetirilməsinə, habelə Qurultayın, Məclisin və İcraiyyə Komitəsinin qərarlarının icrasına nəzarəti təşkil etmək;

5.10.5. Konfederasiya üzvlərinin aparatlarında və onların tabeliyində olan təşkilatlarda əlavə və yeni ştat vahidlərinin yaradılmasına, habelə əməkhaqqı məbləğlərinin və şöbə müdirlərinin təsdiqinə razılıq vermək;

5.10.6. müavinləri arasında vəzifə bölgüsü aparmaq, onların səlahiyyətlərini müəyyənləşdirmək və qarşılıqlı fəaliyyətini təmin etmək;

5.10.7. Konfederasiyanın Aparatının və Konfederasiyanın struktur bölmələrinin əməkdaşlarının vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərar qəbul etmək;

5.10.8. Konfederasiyanın və Konfederasiya üzvlərinin əməkdaşlarının, həmkarlar ittifaqları üzvlərinin dövlət təltiflərinə təqdim edilməsi üçün dövlət orqanları qarşısında vəsatət qaldırmaq;

5.10.9. Konfederasiyanın tərəf kimi iştirak etdiyi sosial tərəfdaşlıq komissiyalarında təmsil olunacaq nümayəndələrini seçmək;

5.10.10. Konfederasiya Aparatı işçilərinin vəzifə təlimatlarını təsdiq etmək;

5.10.11. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlərinə uyğun olaraq Konfederasiyanın adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təşkil etmək;

5.10.12. Konfederasiya adından etibarnamələr vermək, habelə Konfederasiyanın bank hesablarını açmaq;

5.10.13. Konfederasiyanın cari fəaliyyətinin təşkili ilə əlaqədar daxili sərəncamlar və əmrlər vermək;

5.10.14. Qurultayın, Məclisin və İcraiyyə Komitəsinin iclaslarına sədrlik etmək;

5.10.15. Konfederasiyanı təmsil etmək və Konfederasiya üzvlərinin qanuni maraqlarını dövlət orqanları (qurumları), işəgötürənlərin birlikləri, ictimai birliklər, media subyektləri, habelə beynəlxalq təşkilatlar qarşısında müdafiə etmək;

5.10.16. Konfederasiyanın dövlət orqanlarında (qurumlarında), habelə onların işçi qruplarında təmsil olunması üçün səlahiyyətli nümayəndələri müəyyən etmək;

5.10.17. Konfederasiyanın fəaliyyət sahəsinə uyğun olaraq komissiyalar, məşvərətçi komitələr və işçi qruplar yaratmaq, onların səlahiyyətlərini və fəaliyyət qaydasını müəyyən etmək;

5.10.18. Konfederasiyanın əmlakından bu Nizamnamədə nəzərdə tutulan məqsədlərə uyğun istifadə edilməsinə nəzarət etmək;

5.10.19. Konfederasiya sədrinin müavinlərinin seçilməsi və vəzifədən azad edilməsi barədə Məclisə təkliflər vermək;

5.10.20. Konfederasiyanın vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

5.10.21. Konfederasiyanın işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

5.10.22. səlahiyyətləri çərçivəsində dövlət orqanları (qurumları), habelə beynəlxalq təşkilatlarla danışıqlar aparmaq;

5.10.23. Konfederasiyada müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təşkil etmək;

5.10.24. qanunvericilikdə nəzərdə tutulmuş, həmçinin Məclis və İcraiyyə Komitəsi tərəfindən ona həvalə edilən digər vəzifələri yerinə yetirmək.

5.11. Təftiş Komissiyası.

5.11.1. Təftiş Komissiyası Konfederasiyanın maliyyə-təsərrüfat fəaliyyətinə, üzvlük haqlarının hesablanması və ödənilməsinə, əmlakdan, o cümlədən pul vəsaitlərindən düzgün istifadə edilməsinə nəzarəti həyata keçirən əsas nəzarət-təftiş orqanıdır. Təftiş Komissiyasının Konfederasiyanın maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaq və bu məqsədlə onun fəaliyyətinə aid olan bütün sənədləri əldə etmək hüququ vardır. Təftiş Komissiyasının tələbi ilə Məclisin və İcraiyyə Komitəsinin üzvləri, həmçinin Konfederasiya sədri şifahi və yazılı formada zəruri məlumatları təqdim etməyə borcludurlar.

5.11.2. Təftiş Komissiyası Qurultayda Konfederasiya üzvlərinin nümayəndələri sırasından seçilir, fəaliyyətini həyata keçirərkən Qurultay tərəfindən təsdiq edilən “Təftiş Komissiyasının Əsasnaməsi”ni rəhbər tutur.

5.11.3. Təftiş Komissiyasının səlahiyyət müddəti 7 ildir.

5.12. Təftiş Komissiyasının aşağıdakı vəzifələri vardır:

5.12.1. mühasibat uçotunun aparılmasının və maliyyə hesabatlarının düzgünlüyünü və etibarlılığını yoxlamaq;

5.12.2. Konfederasiyanın kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

5.12.3. kənar audit yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə baxmaq və müvafiq tədbirlər görülməsi ilə bağlı təkliflər vermək;

5.12.4. Konfederasiyanın xərclərinin səmərəliliyini qiymətləndirmək;

5.12.5. zərurət yarandıqda kənar auditin təyin edilməsi ilə əlaqədar İcraiyyə Komitəsinə təkliflər vermək;

5.12.6. kənar və daxili audit və ya digər yoxlamaların gedişində müəyyən edilmiş uyğunsuzluq, nöqsan və çatışmazlıqların müzakirə edilməsi və onların aradan qaldırılması üçün İcraiyyə Komitəsinə təkliflər vermək;

5.12.7. maliyyə risklərinin azaldılması üçün Məclisə və İcraiyyə Komitəsinə təkliflər vermək;

5.12.8. Konfederasiya tərəfindən sahibkarlıq fəaliyyəti həyata keçirildikdə, həmin fəaliyyətə nəzarət etmək;

5.12.9. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrini lazımi şəkildə həyata keçirmək üçün ekspert və mütəxəssislərlə əməkdaşlıq etmək və onları öz işinə cəlb etmək;

5.12.10. "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 6. Konfederasiyanın əmlakı və maliyyə fəaliyyətinin əsasları

6.1. Konfederasiyanın fəaliyyəti üzvlük haqları, dövlət büdcəsindən ayrılan vəsait, qrantlar, ianələr, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

6.2. Konfederasiya öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

6.3. Konfederasiyanın pul vəsaitlərinin xərclənməsi təsdiq edilmiş smetalar əsasında həyata keçirilir.

6.4. Konfederasiya öz əmlakı barəsində müstəqil sərəncam vermək hüququna malikdir.

6.5. Konfederasianın əmlakından müstəqil və tam istifadə etmək hüququ özünün müvafiq komissiyaları vasitəsilə İcraiyyə Komitəsinin səlahiyyətlərinə daxildir.

## 7. Konfederasiyada uçot və hesabat

7.1. Konfederasiya "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Konfederasiya "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

## 8. Konfederasiyanın yenidən təşkili və ləğvi

8.1. Konfederasiyanın yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və bu Nizamnamənin tələblərinə uyğun olaraq Qurultayın qərarı ilə həyata keçirilir. Qurultayın bu barədə qərarı səsvermədə iştirak edən Konfederasiya üzvləri nümayəndələrinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.